**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**SAHİBƏ HİDAYƏT QIZI ƏLİYEVA**

# MİLLİ MƏDƏNİYYƏT VƏ MİLLİ MENTALİTET: QARŞILIQLI MÜNASİBƏTLƏRİN FƏLSƏFİ TƏHLİLİ

**İxtisas:7207.01 - Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı-2013**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin "Fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Həmid Rza oğlu İmanov**

**Rəsmi opponentlər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Əli Seyidabbas oğlu Abbasov**

fəlsəfə üzrə elmlər doktoru, professor
**Məmməd Alı oğlu Balayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası ("Fəlsəfə" kafedrası)**

Müdafiə "_20___" 09__ 2013-cü ildə saat "___" -da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti, 31. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq institutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________ 2013-cü ildə göndərilmişdir.

**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun nəzdindəki D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hazırda milli mədəniyyətlə milli mentalitet arasında qarşılıqlı münasibətlərin fəlsəfi problemlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Müasir sosial-tarixi şəraitdə, ölkənin bütün ictimai-siyasi qurumları qarşısında strateji prioritetlərin və sosial-iqtisadi modernləşmə problemlərinin müəyyənləşdirilməsi kontekstində sosiomədəni həyatda milli şüur və milli mentalitet probleminə tədqiqatçı marağı daha da artır. Ölkəmizdə siyasi sistemin demokratikləşməsi və milli-mədəni intibah mühitinin qərarlaşması vətəndaşların sosiomədəni həmrəyliyinin artmasını, millətin mənəvi-siyasi birliyinin möhkəmləndirilməsini son dərəcədə vacib məsələ kimi irəli sürür.

Dünya təcrübəsindən məlumdur ki, sosial islahatların uğur qazanması xeyli dərəcədə texnokratik və mədəni mərkəzləşmə ilə modernləşmə faktorları arasında ziddiyyətlərin aradan qaldırılmasından, inkişaf dəyərlərinin milli şüurda və onun mental qatlarında ənənəvi mədəniyyət dəyərləri ilə birləşməsindən asılıdır. Bu, keçid dövrünü yaşayan cəmiyyətdə «yubanan» modernləşmə prosesində özünü daha açıq büruzə verir. Təcrübə həmçinin göstərir ki, min illər boyu bəşəriyyət xalqların mədəniyyətində və mentalitetində bu və ya digər dərəcədə əksini tapmış müxtəlif ideal və dəyərlərə müraciət etmişdir. Bütün tarixi dövrlərdə insanlar sosial əminamanlığa və ən yüksək dəyər olan ideal azad cəmiyyət quruculuğuna can atmışlar. Lakin indi bəşəriyyəti maraqlandıran bu günün reallıqlarından daha çox insanların gələcəyidir. Bu prosesin mahiyyətini bilmək isə insanların həyat tərzinin, onların düşüncə dərəcəsinin mental xüsusiyyətlərinin dərkini tələb edir. İnsanların bütün səylərinə baxmayaraq, mentalitet probleminin tədqiqi də insanların instiktini, stimullarını, vərdiş və ehtiraslarını araşdırmaqla nəyin baş verəcəyini tam şəkildə müəyyənləşdirmək iqtidarında deyildir. Məlumdur ki, hər bir fərd məhz özünün fərdi həyatını yaşayır və bu mənada eyni həyat tərzini yaşayan iki adamı təsəvvür etmək mümkün deyildir. Alfred Adlerin fikrincə, normal adam o şəxsdir ki, cəmiyyətdə öz həyat tərzi ilə yaşayır və özü istəsə də, istəməsə də faydalanmış olur[1].

Mövzunun aktuallığını şərtləndirən digər bir cəhət də ondan ibarətdir ki, dissertasiyada mentalitet milli şüurun bariz ifadə edildiyi mədəniyyət fenomeni məcrasında tədqiq edilir; o, ümumsivilizasiya prosesinin və onun

[1] Адлер А. Стиль жизни// Психологии индивидуальных различий. М.:Чепо.2000,342с.



iqtisadi bazisinin məhsulu kimi deyil, sosial-fəlsəfi aspektdə şüurun əsası kimi nəzərdən keçirilir. Hazırda milli özünəməxsusluğun kütləvi və nəzəri dərki, mentalitetin intellektual qaynaqlarının öyrənilməsi, koqnitiv, psixoloji sferada nəzərdən keçirilməsi bir çox ciddi terminoloji çətinliklərlə üzləşir. Bu, şüurla mentalitetin qarşılıqlı əlaqəsi və fərqləri probleminin tədqiqində özünü daha çox göstərir. Bu amil dissertasiya işində mentalitet probleminə münasibətdə müxtəlif yanaşmalara müraciət etməni şərtləndirir.

Mövzunun tədqiqini aktuallaşdıran başqa bir mühüm məqam da bundan ibarətdir ki, ictimai mentalitet və sosiumun mentaliteti kateqoriyaları, qarşılıqlı əlaqə və təsir mexanizmləri, xüsusən fənlərarası aspektləri Azərbaycan fəlsəfi və humanitar elmlərində yetərincə öyrənilməmişdir[2]. Ona görə də tədqiqat mövzusu kimi seçilən problemin Azərbaycan gerçəkliyinin müasir tələbləri, xüsusilə mövcud tarixi-psixoloji çətinliklərin aradan qaldırılmasının vacibliyi baxımından öyrənilməsi qarşısında duran ən önəmli vəzifələrdən biridir.

**Problemin öyrənilməsi dərəcəsi:** Mədəniyyət və mentalitet, o cümlədən milli mədəniyyət və milli mentalitet problemlərinin öyrənilməsi sahəsində xeyli iş görülmüş, maraqlı, əhəmiyyətli məsələlər qoyulmuş, onların təhlili verilmiş, ciddi ümumiləşdirmələr aparılmışdır. Bu baxımdan, ilk növbədə, müasir Qərb fəlsəfi fikrində "mədəniyyət-mentalitet" probleminin nisbətən geniş öyrənilməsini qeyd etməliyik. Qərb müəllifləri mentalitetin tarixi-mədəni köklərinin öyrənilməsinə daha çox yer ayırmışlar. Biz araşdırılan problemin öyrənilmə səviyyəsinə aydınlıq gətirmək baxımından Lyüsen Fevrin və Mark Blokun mədəniyyət, tarix və mentalitetin qarşılıqlı münasibətləri məsələlərini bir qədər geniş təqdim etməyi məqsədəuyğun sayırıq. [3] Məsələ bundadır ki, mentalitet anlayışını elmi-tarixi fikrə və mədəniyyət tarixinə ilk dəfə adı çəkilən görkəmli alimlər daxil etmişlər. L.Levi Bryulun «Primitiv cəmiyyətlərin mental funksiyaları əsərindən bəhrələndiyini etiraf edən L.Fevrə görə, şüur və onun psixoloji məzmunu fərdə məxsusdur. Lakin hər bir cəmiyyətdə, onun mövcud mərhələsində fərdi şüurun strukturlaşması üçün spesifik şərtlər olmuşdur: mədəniyyət və ənənə, dil, həyat tərzi və din bir növ elə bir «qəlibdir» ki, onun çərçivəsində mentallıq formalaşır. O, göstərirdi ki, hər bir sivilizasiyaya öz psixoloji anlayışlar aparatı məxsusdur. Bu psixoloji anlayışlar həmin epoxanın tələblərinə cavab verir. L.Fevrin mentalitet

[2] Qarayev Y. Meyar şəxsiyyətdir. B.: Yazıçı, 1998,451s

[3] Флиер А. О новый культурной политике//Общественные науки и современность.1994, №5, с.37-49.

barədə fikirlərinə bəraət qazandıran V.M.Dalın özünün «XIX-XX əsrlər Fransa tarixi» əsərində yazır ki, L.Fevrin tarixi psixologiyalaşdırılması fikrini söyləyənlər haqsızdırlar. Başa düşülməlidir ki, tarixi hərəkatın istənilən obyektiv faktoru onun kəsərli hərəkətvericisi olması üçün yalnız mentallıq problemi ilə əlaqəli nəzərdən keçirilməsi sayəsində mümkün olur[4]

Kütlələrin mental həyatı ilə bağlı tarixi-mədəni hadisələrə hədsiz marağı M.Blokun sosial-fəlsəfi fikirlərinin formalaşması üçün mühüm stimul olmuşdur. O, mentaliteti "əqli keyfiyyətlər", "psixologiya", "əql tərzi", yaxud da dünya haqqında kompleks təsəvvürlər sistemi adlandırır və qeyd edir ki, bunların vasitəsilə insan şüuru mövcud epoxada "dünyanın mənzərəsini yaradır". Onun fikrincə, "dəyişmə xarakterinə malik mentalitet ictimai strukturla birgə dəyişir, yeniləşir"[5].«Mentalitet və mədəniyyət» probleminin öyrənilməsində Rusiyalı müəlliflərin də rolu mühüm olmuşdur. Bu baxımdan mentalitet barədə maraqlı fikirlər "Voprosı filosofii" (1994, №1) jurnalının "Dəyirmi masa"da şərh olunan material xüsusi maraq doğurur. Burada mentalitet və rus xalqının xarakteri problemi qabarıq göstərilir, bunun milli mədəniyyətlə əlaqəsinə daha çox diqqət yetirilir. Müəlliflərdən Q.Qaçevin[6], V.Kaqramanovun[7], S.Kaydaşın[8], D.S.Lixaçovun[9] və başqalarının əsərlərində rus xalqının mentaliteti xalqın dini dünyagörüşü, onun dövlətçiliyinin formalaşma mərhələləri ilə əlaqələndirilir. Tədqiqatçı D.Furman rus mentalitetini daha çox xalqın mənlik şüurunun xüsusiyyətləri ilə izah edir[10]

Rusiyanın sosial-fəlsəfi fikrində mentalitet probleminin daha bir maraqlı cəhəti mentalitetin formalaşmasında təhsilin rolu məsələsidir. Tədqiqatçı A.P.Voletskaya hesab edir ki, bu məsələnin tədqiqi Rusiya cəmiyyətinin mentalitetinin məzmun əsasını təşkil edir və dinamikasının

---

[4] Далин В.М. История Франции Х1Х-ХХ веков. М.: Наука, 1981, с.188-189.

[5] Блок М. Апология истории.Раздел, «Исторические наблюдения». М.: Наука,1986, с.135-164.

[6] Гачев Г. Национальный мир и национальный ум//Путь,1994, №6, с.27-39.

[7] Каграманов В.Империя Ойкумена /Новый мир.1995, №1, с.140-171.

[8] Кайдаш С. Русский менталитет и мичуринцы // «Независимая газета»,1993, 2 июля.

[9] Лихачов Д.С. Нельзя уйти от самого себя «Историческое самосознание и культура России» // «Новый мир», 1994, №6, с.113-120.

[10] Фурман Д. « Русский вызов и комплекс национальный неполноценности об особенностях нашего сегоднешного самосознания «Независимая газета»,1994,16 апреля, с.39-42



öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir[11]. B.S.Qerşunski etiraf edir ki, bu günə kimi Rusiya tədqiqatçıları təhsil sisteminin proqnostik funksiyalarını dəyərincə reallaşdıra bilməmiş, milli mentalitetin pozetiv elementlərlə zənginləşməsi prosesini təmin edə bilməmişdir[12].

«Mədəniyyətlə mentalitetin sosial mahiyyəti, millətlərarası münasibətlərə təsiri, millət-etnos, milli dövlət və şəxsiyyətin identikliyi kontekstində araşdırılması tanınmış tədqiqatçı R. Q.Abdulatipovun «Etnopolitologiya» əsərində maraqlı şəkildə öz şərhini tapır. Müəllif yazır ki, hər bir şəxs bütün ictimai münasibətlər sisteminin, o cümlədən etnomilli və etnomədəni münasibətlərin daşıyıcısı və yaradıcısıdır[13]. Onun fikrincə, konkret fərdlərin fəaliyyəti ilə, eləcə də etnomədəni kommunikasiya vasitəsilə yaranmış sosiomədəni konsolidasiya millətin mədəni varlığını qoruyan faktordur. Təbii ki, bu konsolidasiya prosesində fərdin, bütövlükdə xalqın, millətin mentaliteti mühüm səfərbəredici rol oynayır. Xalqın pozitiv mentalitetini saxlamaqla fərd öz xalqına xidmət etmiş olur. Çoxmillətli dövlətdə əminamanlıq çoxlu sayda əldə edilmiş hüquqlardan deyil, bu hüquqların tolerantlıq şəraitində həyata keçirilməsi ilə təmin olunur. Tolerantlıq isə başqa xalqların mental xüsusiyyətlərinə insani hörmət deməkdir. Bu işdə fərdin ümumi mədəniyyəti, onun şüurunun mental xüsusiyyətləri müstəsna rol oynayır.

Qeyd etdiyimiz kimi mentalitet, xüsusilə onun mədəniyyətlə qarşılıqlı əlaqəsi problemi Azərbaycan sosial-fəlsəfi fikrində də müəyyən səviyyədə öyrənilmişdir. Bu sahədə ilk mühüm iş kimi Q.C.Əliyevin «Heydər Əliyev və milli mentalitet fəlsəfəsi» əsərini qeyd etmək olar. Əsərdə problemin fəlsəfi aspektlərinə ciddi diqqət yetirilir. Müəllif Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» ideyasını xalqın mentalitetinin fəlsəfi qaynağı kimi nəzərdən keçirir, bunu konseptual səviyyədə təhlil edir. Monoqrafiyada belə bir mülahizə əsaslandırılır ki, keçid dövrünün mürəkkəb və ziddiyyətli tarixi mərhələsində cəmiyyət insan potensialına, onun intellektual resusrlarına müstəsna ehtiyac duyur, çünki siyasi reallıqları dərk etmək, hər bir fərdin şüurunu yeni quruculuğa yönəltmək, onun mental xüsusiyyətlərini öyrənmək mühüm sosial vəzifədir. Müəllif tarixi yaddaş və mentalitet, vətən və azərbaycançılıq, xalq mentaliteti və

---

[11] Волетская А.П. Философские основания современной парадигмы образования «Педагогика», 1997,№3, с.39-42.

[12] Гершунский Б.С. Менталитет и образование. М.: Институт практический психологии.1996, 30-55, 80-118.

[13] Абдулатипов Р.Г. Этнополитология.М.: СПБ.: «Питер» 2004,с.167

milli həmrəylik, dövlətçilik və siyasi mentalitet kimi, ümumiyyətlə az öyrənilmiş problemlərə toxunmuş, bu fenomenlərin elmi-nəzəri araşdırılması müstəvisində milli mentalitetin inkişaf oriyentirlərini müəyyənləşdirməyə cəhd göstərmişdir[14].

Müasir Azərbaycan sosial- fəlsəfi fikrində mentalitet probleminə həm də Q.C.Əliyevin, Ə.M.Tağıyevin, M.İ.Bayramovun birgə yazdıqları «Mədəniyyətşünaslığın əsasları» kitabında toxunulur. Əsər dərslik xarakteri daşısa da, müəlliflər araşdırılan problemin elmi şərhinə daha çox diqqət yetirmişlər. Müəlliflər "mentalitetin tipləri", "mentalitet mədəniyyət növü kimi" mövzularına xüsusi diqqət yetirmişlər. Əsərdə mentalitetin mədəni ənənə və həmrəylik, eləcə də dünya mənzərəsində etnoqrafik biliklərin mental xüsusiyyətlərinin formalaşmasında rolu məsələlərindən bəhs edilir[15]

Müasir dövrdə qloballaşma şəraitində mədəniyyətin inkişafı və milli özünüdərk məsələləri R.Ə.Mehdiyevin[16], S.S.Xəlilovun[17], İ.R.Məmməd-zadənin[18], Ə.M.Tağıyevin və M.A.Şükürovun[19] və başqalarının əsərlərində öz əksini tapmışdır. Lakin həm xarici ölkələrdə, həm də Azərbaycanda tədqiqatçıların, mütəxəssisələrin milli mədəniyyət və milli mentalitetlə əlaqədar gördüyü işləri yetərincə qiymətləndirməklə yanaşı qeyd etməliyik ki, həmin problem bu qoyuluşda respublikamızda dissertasiya tədqiqatı səviyyəsində son illərdə meydana çıxan yeni materiallar əsasında xüsusi olaraq araşdırılmamışdır. Zənnimcə, hazırki dissertasiya qeyd olunan istiqamətdə göstərilən ciddi səylərdən biri kimi dəyərləndirilə bilər.

**Тядгигатын обйекти.** Tədqiqatın obyektini cəmiyyət həyatının bir-biri ilə sıx bağlı olan iki mürəkkəb sistemi- mədəniyyət və mentalitet təşkil edir.

**Тядгигатын предмети.** Дцнйа мядяниййятinin tərkib hissəsi olan milli mədəniyyətlə milli mentalitetin qarşılıqlı əlaqə və təsir mexanizmlərini və xüsusiyyətlərini sosial-fəlsəfi aspektdə araşdırmaqdan, azərbaycanlı mentalitetini, onun keçmişini və bugünkü səviyyəsini təhlil etməkdən ibarətdir.

[14] Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi.B.: Qismət, 2003, 177-180.
[15] Əliyev Q.,Tağıyev Ə., Bayramov M. Mədəniyyətşünaslığın əsasları.B.: Təbib, 1998, s.111-112.
[16] Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. B., Yeni nəşrlər evi, 2003,248s.
[17] Xəlilov S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparotivistika).B.:"Azərbaycan Universiteti", 2006, 420s.
[18] Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında .B.: Təknur, 2009, 226 s.
[19] Tağıyev Ə., Şükürov M. Etnopolitologiya.B.: Elm, 2000, 148 s.



**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi milli mentalitetin milli-mədəni determinantlarının və onun mədəni dəyərlərlə əlaqəsinin sosial-fəlsəfi təhlilini aparmaq, bu qarşılıqlı təsirə xas olan ümumi meylləri və xüsusiyyətləri aşkara çıxarmaqdır. Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir:

-milli-mədəni inkişafın, ənənə və varisliyin mental xüsusiyyətlərini nəzərdən keçirmək;

-mədəni sosiallaşma ilə mentalitetin qarşılıqlı əlaqə və təsirinə dair nəzəri-metodoloji məsələləri xüsusi olaraq araşdırmaq;

-mentalitetin azırbaycançılıq paradiqmasının mahiyyətli xarakteristikasını vermək;

-mövcud ədəbiyyatda mentalitet anlayışına dair müxtəlif mövqelərin təhlili əsasında mədəni mentalitet kateqoriyasının təhlilini aparmaq;

– sosial intellekt və metal təcrübə fenomenini sosial - tarixi kontekstdə araşdırmaq;

– mentalitetə müxtəlif yanaşmaların təhlili əsasında mentalitetin insanların sosiomədəni həyat tərzi ilə əlaqəsi, bu fenomenin tarixi dəyişikliyə məruz qalması prosesini nəzərdən keçirmək;

– mentalitetdəki dəyişkənliklərin sosial-sistemin xarakteristikasından asılılığı totalitar mədəniyyət və mentalitet kontekstində araşdırılır.

**Tədqiqaqtın elmi yeniliyi** qarşıya qoyulmuş məqsəd və vəzifələrdən irəli gəlir və konkret olaraq aşağıdakı müddəalarda öz əksini tapır:

-Azərbaycan sosial fəlsəfi fikrində ilk dəfə olaraq, sosial intellektlə mental təcrübənin sıx vəhdətini şərtləndirən amillərin sistemli təhlili verilmişdir.

-milli mentalitet «Biz-Onlar» kontekstində sosial-əxlaqi meyarlar baxımından xüsusi olaraq araşdırılmışdır;

-dissertasiyada vətənpərvərlik və milli özünütəsdiq konkret faktlara istinadən mental xüsusiyyət kimi əsaslandırılmış və tədqiq olunmuşdur;

-mentalitetin paradiqmatik məqamlarının öyrənilməsi əsasında azərbaycançılıq milli mentalitet paradıqması kimi təhlil edilmişdir;.

-ilk dəfə olaraq «mentalitet təcrübəsi» anlayışı daxil edilmiş və tədqiqatın vəzifələri baxımından təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarının formalaşmasında ümummilli liderimiz H.Ə.Əliyevin

və Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin məruzə, çıxış və müsahibələrində öz əksini tapmış müddəalar xüsusi önəm kəsb edir. Bununla yanaşı Azərbaycanın və xarici ölkələrin alimlərinin mədəniyyət və mentalitet problemləri üzrə apardıqları elmi araşdırmalar nəzəri əsas kimi geniş şəkildə tədqiqata cəlb olunmuşdur. Tədqiqat zamanı reallaşdırılan vəzifələrin xarakterindən asılı olaraq, tarixilik, konkretlik, səbəbiyyət, sistemlilik kimi prinsiplərdən, analiz, sintez, induksiya, deduksiya, müqayisəli təhlil, sistem və sturuktur funksional yanaşma metodlarından, sosial-fəlsəfi tədqiqatlarda və mədəniyyətşünaslıqda işlənib hazırlanmış sosiomədəni inkişaf paradiqmalarından istifadə edilmişdir.

**Dissertasiya işinin elmi-nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın elmi-nəzəri əhəmiyyəti araşdırılan problemin metodologiyasında öz əksini tapmışdır. Müasir mərhələdə müstəqilliyini əldə etmiş postsovet məkanı respublikalarının, o cümlədən Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınması, təbii ki, onların milli mədəniyyətlərinin özünəməxsus potensialının, milli xarakterinin və mental xüsusiyyətlərinin daha aydın şəkildə üzə çıxmasına imkan yaratmışdır. Milli mədəniyyətlə milli mentalitetin qarşılıqlı münasibətlərin dissertasiya tədqiqatı səviyyəsində araşdırılması problemin daha konkret aspektlərinin gələcəkdə daha dərindən və daha müasir metodologiya əsasında tədqiqi üçün müəyyən stimul yarada bilər.

Fikrimizcə, tədqiqatda öz əksini tapan istifadə olunan materiallar və ümumiləşdirmələrdən ayrı-ayrı fənlərin (Fəlsəfənin əsasları; Mədəniyyətşünaslıq; Ümumi sosiologiya; Ümumi psixologiya; İdarəetmənin əsasları və s.) tədrisində milli mədəniyyət, mentalitet, milli mənlik şüuru və s. kimi problemlərin öyrənilməsində, habelə xüsusi kursların tədqiqat işinin elmi-metodoloji bazasında istifadə edilməsi xüsusi kursların tədrisində istifadə edilə bilər. Dissertasiyada çıxarılan nəticələr respublikanın ayrı-ayrı bölgələri, şəhər və kəndləri üçün sosiomədəni layihələrin işlənib hazırlanması və reallaşdırılmasında dövlət qurumları və qeyri-hökumət təşkilatlarına yardımçı ola bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Humanitar fakültələr üzrə Fəlsəfə kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə məsləhət bilinmişdir. Tədqiqatın əsas məzmunu müəllifin elmi məqalələrində (o cümlədən xaricdə çap olunmuş məqalələrində), habelə respublika və beynəlxalq səviyyəli elmi-nəzəri və praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, iki fəsil(altı yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından



ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **«Giriş»** hissəsində tədqiqatın aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi araşdırılmış, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yenilikləri,nəzəri- metodoloji əsasları müəyyənləşdirilmiş, aprobasiyası və sturukturu açıqlanmışdı.

Dissertasiyanın **birinci fəsli "Mədəniyyət və mentalitet sosial-fəlsəfi problem kimi"** adlanır və dörd yarımfəsli ehtiva edir. Bu fəslin "Mədəni inkişaf və mentalitetin zənginləşdirmək imkanları" adlanan ilk yarımfəslində sosial-mədəni inkişaf kontekstində mentalitetin tarixi təkamülə məruz qalması və zənginləşməsini şərtləndirən amillər təhlil olunur. Qeyd edilir ki, mədəniyyət cəmiyyətə əqli, düşüncə tərzini müəyyənləşdirən intellektual modelləri təqdim edir, lakin bunlardan necə istifadə olunması sosium üzvlərinin bacarıq və imkanlarından asılıdır. Ən geniş mənada götürsək, mədəniyyət xalqın milli varlığının təzahür faktorudur və faktor hər bir xalqın mentalitetini müəyyənləşdirməklə kifayətlənməyib, onun tarixi varlığının mahiyyətinə, bütün sosial-psixoloji reallıqlarına nüfuz edir. Daha dəqiq desək, məhz bunun sayəsində xalqın, millətin mentalitetin nüvəsini təşkil edən mədəni aləm fenomeni formalaşır. Mədəniyyətlə mentalitetin qarşılıqlı münasibətlərini nəzərdən keçirərkən bir çox sosial fəlsəfi yanaşmalar (L.Fefr, L.Bryul, K.L.Stross, R.Benedikt, M.Koulun və b.) təhlili olunur.

Adları çəkilən müəlliflərin əsərlərinə istinad edərək deyə bilərik ki, mentalitetin əsas funksiyası orijinal təfəkkür üsulunu, ağıl tərzini, hətta sosial-psixoloji ovqatı təzahür etdirir. Bu anlayış, yəni sosiomədəni mühitdə formalaşmış mentalitet həyati dəyərlərin, ənənələrin, etnik şüur məziyyətlərinin, qiymətləndirmə meyarlarının daşıyıcısı olan etnosun və şəxsiyyətin təfəkkür qabiliyyətinin və intellektinin səviyyəsinin daşıyıcısıdır. Sosial subyekt olan insan etnomədəni mühitə uyğunlaşma qabiliyyətinə malikdir. Mahiyyətcə sosial adaptasiya olan həmin uyğunlaşma sosiomədəni təəssüratlar şəraitində reallaşır, onun mental xüsusiyyətləri də emosional formada təzahür edir. Xalqın mənlik şüurunun nəyi qəbul edib-etməməsi məhz sosiomədəni mühitdə formalaşmış yaddaşdakı biliklər məcmusu və konkret sosial şəraitdə təkamül edən mədəni ənənə ilə bağlıdır.

Yeri gəlmişkən qeyd edək ki, mədəniyyətlə mentalitetin qarşılıqlı əlaqəsinin sosial fəlsəfi mahiyyətini dərindən öyrənmək məqsədilə

cəmiyyətin mövcud ovqatı və xalqın həyat tərzi ilə bağlı problemlərə tədqiqatçılarımız xüsusi diqqət yetirməlidirlər. Bu baxımdan postsovet məkanında sosial və etnik identikliyin transformasiyaya uğraması problemi Azərbaycan sosial fəlsəfəsində xüsusi tədqiqat obyekti olmalıdır. Beləliklə, "mədəniyyət-mentalitet" probleminin mahiyyətini dərk etmək baxımından belə nəticəyə gəlmək olur ki, etnik şüurun normal fəaliyyətini təmin edən sosiomədəni mühit olmalıdır.

Qeyd etmək lazımdır ki, cəmiyyətşünaslıq elminə mentalitet anlayışını metodoloji termin kimi mədəni-antropoloji xarakterli dəyərli əsərlərin «İbtidai təfəkkür», «Primitiv cəmiyyətlərin mental funksiyaları» və s. müəllifi etnoloq və sosioloq L.Levi Bryul gətirmişdir. Sonralar həmin anlayış fransız «Annallar» tarix məktəbinin nümayəndələri L.Fevr, M.Blok və b. tərəfindən inkişaf etdirilmişdir. M.Blok erkən və klassik orta əsrləri, L.Fevr isə intibah dövrünü öyrənərkən mentalitet termininə metodoloji üstünlük vermiş, bu termini daha mürəkkəb və inkişaf etmiş cəmiyyətlərin öyrənilməsinə tətbiq etmişlər. Zaman keçdikcə isə bu anlayış müxtəlif çalarlarda işlənmiş və bu gün bizə məlum olan müvafiq elm sahələrinin kateqoriyalar aparatında öz yerini tapmışdır.

Müasir fəlsəfi, psixoloji, sosioloji, etnoloji ədəbiyyatda mentalitet anlayışı ilə mədəniyyətin qırılmaz əlaqəsi ətrafında müxtəlif mülahizələr və konsepsiyalar irəli sürüldüyü faktına bir daha qayıdaraq qeyd edək ki, kulturoloq A.Y.Qureviçin fikrincə, mentalitet dünyanın mənzərəsini yaradan və mədəni ənənəni, yaxud hər hansı insan birliyini birləşdirən nisbətən bütöv fikirlərin, etiqadların, ruhi vərdişlərin məcmusudur[20].

Birinci fəslin ikinci yarımfəsli «Mədəni ənənənin mental xüsusiyyətləri» adlanır və mədəni ənənənin təşəkkülü və inkişafında mental xüsusiyyətlərin təzahürləri nəzərdən keçirilir. Qeyd edir ki, "mədəni mentallıq" anlayışının öyrənilməsində yalnız insanın ruhu və hisslərinin oynadığı rolu üzə çıxarmaq, yəni onu ekzistensial problem kimi araşdırmaq kifayət deyildir. Nəzərə alınmalıdır ki, həm idrak, həm də həyat üçün ən vacib sosiomədəni məsələ mərkəzində insan, onun təbiəti və düşüncə tərzi duran mədəniyyət və sivilizasiya problemidir. Məsələ burasındadır ki, bütövlükdə mədəniyyətin özü əvvəl mövcud olanların nisbətən dəyişməz qalmasını nəzərdə tutan dialoqdan ibarətdir[21]. Mədəniyyətlərin dialoqu

[20] Гуревич А.Я. Исторический синтез и школа «Анналов». М.: Индрик, 1993,с.56.

[21] Бердяев Н.А. Самопознание. Ответ философской автобиографии. М.: Книга,1991, с.138



xüsusi ünsiyyət forması olub, dünyanın əzəmətini açan yaradıcılığın mənası kimi özündə insan fəaliyyətinin xüsusi determinasiya formalarını, onun zəkasını, fərdin yeni dövrdə yaranmış özünəməxsus xarakteristikalarını, mədəni ənənəni əks etdirir. Mədəniyyətlərin dialoqunda iştirak etməyin müqəddəm şərtlərindən biri düşmənçilik və zorakılığın əlamətlərini özündə saxlayan uzaq keçmişin stereotiplərinin aradan qaldırılması və mədəni davranış psixologiyasının formalaşdırılmasıdır. Dialoqda çox zaman özündə müxtəlif mental xüsusiyyətləri daşıyan müxtəlif mədəniyyətlər iştirak edir. Mədəniyyətlərin dialoqu epoxalar vasitəsilə qarşılıqlı anlaşma, dialoqda iştirak edən ölkələrin mental xüsusiyyətləri ilə tanışlıq prosesidir. Burada müxtəlif mənalar, dəyərlər üz-üzə gəlir, qarşılıqlı zənginləşmə prosesi gedir. Lakin daha mühüm cəhət budur ki, mədəniyyətilərin dialoqu həm də sivilizasiyaların özünü identifikasiyasıdır. Yarımfəsildə qeyd olunur ki, ənənə dedikdə, müəyyən mədəniyyət nümunələri, institutlar, normalar, dəyərlər, ideyalar, adətlər, mərasimlər, üslublar və s. nəzərdə tutulur. Ənənə sosiomədəni təcrübənin bu və digər elementlərinin qeydə alınmasını, təsbit olunmasını və seçimli saxlanmasının universal forması, həmçinin sosiomədəni proseslərdə onun ötürülməsini, dayanıqlı tarixi-genetik varisliyi təmin edən universal mexanizm kimi başa düşülür. Daha doğrusu, ənənə özündə ötürülən (sosiumun və onun subyektlərinin normal inkişafı və fəaliyyəti üçün vacib sayılan müəyyən sosiomədəni informasiyanı və onun necə həyata keçirilməsini ehtiva edir, yəni nəsillərarası əlaqəni təmin edən kommunikativ ötürülmə vasitələrini əhatə edir. Beləliklə, müasir sosial-fəlsəfi konsepsiyalarda ənənə nəsildən-nəslə ötürülən və cəmiyyətin, sosial qrupların fəaliyyətində təkrar istehsal olunan sosial mədəni irs kimi qiymətləndirilir.

Bəşəri təcrübədən məlumdur ki, xalqların milli dünyagörüşündə sosial-iqtisadi və mənəvi-mədəni dəyişikliklər milli-mədəni ənənənin formalaşmasına təsir göstərir. Bu baxımdan biz hesab edirik ki, ənənə anlayışını özündə sosial stereotipləşmənin mümkün formalarını birləşdirən irsi fenomen kimi tədqiqi vacibdir. Məsələ burasındadır ki, sovet dövrü tədqiqatlarında «mədəniyyətlə» «ənənə», demək olar ki, sinonim anlayışlar kimi öyrənilirdi. Halbuki mədəniyyətin özü müstəqil bir tədqiqat fenomenidir, ənənə isə onun formalaşma, öütürülmə və fəaliyyət mexanizmidir. Bir sosiomədəni mexanizm olaraq ənənə bu günlə keçmişin mühüm əlaqələri sistemidir. Müəyyən sosiomədəni seçim, təcrübənin stereotipləşməsi və stereotiplərin ötürülməsi, sonra isə onların yenidən təkrar istehsal prosesi, eləcə də düşüncə tərzini müəyyən edən mentallıq xüsusiyyətləri məhz ənənənin sayəsində baş verir. Buna görə də mədəniyyət

anlamında xalqların və cəmiyyətlərin inkişafı üçün əhəmiyyət kəsb edən fenomenlər, ənənə şəklində toplanan təcrübə, yeni insan fəaliyətinin müəyyən stereotipləri, həmin fəaliyyətin təzahür və nəticələri barədə təsəvvürlər ehtiva olunmuşdur.Ənənəni kollektiv sosial yaddaş kimi səciyyələndirmək olar.

Birinci fəslin «Mədəni sosiallaşma və mentalitet: nəzəri-metodoloji məsələlər» adlanan üçüncü yarımfəsli mürəkkəb ziddiyyətli mədəni sosiallaşma prosesində mentallığın nəzəri-metodoloji məsələlərinə həsr olunmuşdur. Son araşdırmalar göstərir ki, şəxsiyyətin mədəni sosiallaşması prosesi, bununla bağlı onun mentalitetində baş verən mühüm dəyişikliklər hazırda tədqiqatçıların ciddi diqqət yetirdiyi aktual problemlərdən birinə çevrilmişdir. Ən ümumi şəkildə sosiallaşma fərdin konkret cəmiyyətdə uğurlu fəaliyyəti üçün zəruri olan davranış nümunələrini, psixoloji mexanizmləri, sosial norma və dəyərləri mənimsəməsi prosesidir. Mədəni sosiallaşma fərdin öz fəaliyyətində sosial təcrübəni, sosial əlaqələr və münasibətlər sistemini mənimsəməsi və fəal təkrar istehsal etməsi prosesidir. Bu, sosiomədəni həyatın labüd hadisəsi, mədəniyyət subyektinin təşəkkülü və inkişafının üniversal faktorudur.

Tədqiqatçılardan A.V.Lukonun, A.Kardiner, V.V.Moskalenko, R.Redfier, R.Finton, M.Herskovits və başqaları mədəni sosiallaşmanın mahiyyətini açıqlamış, onun digər sosiallaşma tiplərinə münasibətini nəzərdən keçirmişlər. Sosiallaşma prosesində insanın cəmiyyətdə normal həyat fəaliyyəti, öz sosial əhatəsi ilə düzgün qarşılıqlı münasibətlər qurması üçün lazım olan, ictimai mənada bəyənilən və dəyərləndirilən keyfiyyətlər formalaşır. Bunu da qeyd edək ki, bütün hallarda mədəni sosiallaşmanın pozitiv mahiyyəti hər bir şəxsiyyətin təşəbbüskar, yaradıcı fəaliyyət subyektinə çevrilməsidir, onun mentalitetinin yeni keyfiyyətlər hesabına zənginləşməsidir.

Təhsil mədəni sosiallaşmanın texnoloji mexanizmidir, çünki onun başlıca funksiyası dinamik inkişaf edən cəmiyyətin tələblərinə adekvat cavab verən gənc nəsil yetişdirməkdir. Azərbaycan təhsil məkanı üçün təhsil sahəsində volyuntarist yanaşmalara imkan verməmək, cəmiyyətin «mədəni nüvəsini» qorumaq, deməli, mədəniyyətin «milli genini» mühafizə etmək səciyyəvi cəhətdir, hərçənd bu sahədə müəyyən problemlərin mövcudluğu etiraf olunmalıdır. Bu gün gənclərimizin həyat strategiyasında təhsil çox mühüm sosial faktor kimi çıxış edir. Bizə elə gəlir ki, artıq belə bir vəziyyət etiraf olunmalıdır ki, ənənəvi sosiallaşma institutları cəmiyyətin intellektual səviyyəsini artırmaq istiqamətində çox iş görməlidirlər. Hazırda gəncləri sosiomədəni baxımdan dəstəkləmək



konsepsiyasına yenidən baxılmalı, təhsil sahəsində islahatların həyata keçirilməsi yolunda mövcud maneələr tezliklə aradan qaldırılmalıdır.

Müasir mədəni sosiallaşma prosesində insanların əsas özünütəşkil mexanizmləri kimi bunlar daha çox diqqətdə saxlanılır: ənənəvi (ailə və mikrososial ətraf vasitəsilə), institutsional (təhsil və digər institutlar vasitəsilə), üslublarlaşdırma (submədəniyyətlər vasitəsilə), şəxsiyyətlərarası (nüfuzlu şəxslər vasitəsilə), refleksiya (fərdi yaşantı və dərketmə).Təsadüfü deyildir ki, dövlətimiz gənclərin mədəni baxımdan fəal sosiallaşması, eləcə də onların mentalitetində sağlam elementlərin yer tutması istiqamətində gənclər siyasətini müəyyənləşdirən konsepsiyalara yenidən baxaraq, mövcud resllıqlara adekvat olan dəyişikliklər aparır. Gənclər məkanı – mədəni özünü ifadəetmə və özünütəsdiq sahəsidir. Bu, çox həssas bir sosiomədəni məkandır. Ona görə də sosial fəlsəfə sahəsində gənclər problemi daha dərindən araşdırılmalı və cəmiyyət üzvlərinin mədəni sosiallaşma modelləri işlənib hazırlanmalıdır.

Birinci fəslin dördüncü yarımfəsli "Mentalitet probleminə müxtəlif yanaşmalar və onların dinamikası" adlanır. Bu yarımfəsildə «mentalitet» anlayışının meydana gəlməsi, tarixi təkamülü və mahiyyəti açıqlanır, müasir mədəni inkişaf kontekstində ona olan müasir baxışlar öz əksini tapır.

Müasir qloballaşmanın xarakterik əlamətləri belə deməyə əsas verir ki, sosiosiyasi rejimdən asılı olmayaraq inteqrasiya prosesləri həyat fəaliyyətinin mühüm təminatı olan əxlaqi-etik dəyərlərə yenidən baxmağı, onların praktik həyat üçün zəruri elmi-metodoloji mexanizmlərinin işlənib hazırlanmasını tələb edir. Bu günə qədər həmin sahədə aparılan tədqiqatlar əsasən analitik xarakter daşımışdır. Bu təbii elmi araşdırma metodudur və biz də bunun zəruriliyini təqdir edirik. Lakin, bizcə, əldə edilən məlumatların sintezi, onların nəzəri-induktiv ümumiləşdirilməsi göstərir ki, burada başqa yanaşmalara, metodlara ehtiyac duyulur.Ona görə də məlum və çox işlənilmiş etik prioritetlərə, dünyagörüşü prinsiplərinə və davranış yönümlərinə müraciət etməkdənsə, daha çox ümumi xarakterli dəyər ideallarına, yəni onların təsiri imkanlarına, mövcud sosial reallıqlarda deduktiv yanaşması baxımından kəsərli, inteqrativ potensiala malik olan prioritetlərə üstünlük verilməlidir. Başqa sözlə, burada söhbət insanın həyat fəaliyyəti motivlərini müəyyən edən sintezləşdirilmiş dəyər və məqsədlərinin mahiyyətini əks etdirən anlayışdan gedir. Belə bir anlayış mentalitetdir. Dünya proseslərinin idarə olunması sosial sübyektlərin məqsədyönlü fəaliyyəti və idarə edilməsi sayəsində mümkün olur. Davranışları isə idarə edən "mentalitet, yaxud mentallıqdır, yəni fərdi və kollektiv dünyagörüşünün, son nəticədə davranışın dərin əsaslarıdır ki,

bunlar mədəniyyətin, dinin, fəlsəfənin və təhsilin törəmələridir"[22].

«Mentalitet» anlayışı M.Moss tərəfindən 1905-ci ildə işlədilmişdir[23]. Elmi dövriyyəyə L.Levr və M.Blok tərəfindən daxil edilən bu anlayışdan müxtəlif sosiomədəni fenomenlərin öyrənilməsində, xüsusilə «kollektiv dərk edilməmiş»in mahiyyətinin açılmasında istifadə olunmuşdur. Mentalitetin formalaşması daha çox həyatın obyektiv reallıqlarında mənəvi xarakterli subyektiv təsirlərlə, şəxsiyyətin müvafiq sosial-genetik yönümünün mənbəyi olan cəmiyyət hadisələri ilə bağlıdır. Lakin son nəticədə insan varlığının əsaslarını, insaların müxtəlif təsirlərə məruz qalmasına baxmayaraq, onların davranışını mədəni dəyərlər müəyyənləşdirir. Çünki mentalitet, ən ümumi şəkildə insanların həyat və praktikasındakı yönümlərini, dünyanın sabit obrazlarını emosional vəziyyətlərini, bu vəziyətdə insanın üstünlük verdiyi məqamları, mövcud cəmiyyətə xas olan mədəni və ənənəvi dəyərləri əks etdirir[24]. Ona görə də hazırda bir çox tədqiqatçılar belə hesab edirlər ki, hər bir xalqın sosial tarixini, hətta bəşəriyyətin tarixi keçmişini və bu gününü izah etmək yalnız mental ölçülərdə, yalnız insan cəmiyyətinin mental xarakterikalarını öyrənmək sahəsində mümkündür. Məlumdur ki, şəxsiyyətsiz fərdi şüur mümkün deyildir. Fərdi şüur şəxsiyyətlə birlikdə inkişaf edir, o, məhz həmin şəxsiyyətin təkrarsız cəhətlərini fərdi tərzdə əks etdirir. Lakin mentalitetin dərki, onun bütün potensialını aşkarlamaq baxımından şüurla mentalitetin müvafiq növləri arasında qarşılıqlı münasibət və fərqi göstərmək problemin həllinə daha məhsuldar yanaşma olardı. Mentalitetin hərtərəfli dərki fərdin bütöv obrazının yaradılması deməkdir, bu isə inkişaf etmiş mənlik şüurunun əsas «məhsuludur»[25]. Mentaliteti nə şüura, nə də davranışa, onun mexanizmlərinə müncər etmək düzgün yanaşma deyildir və bu cür yanaşma onun mahiyyət xarakteristikalarını təhrif edə bilər. Mentalitet ilk növbədə həyatın, davranışın və əməllərin müxtəlif tərəflərinə şəxsi və ictimai münasibətlərin dərin meyar əsaslarını xarakterizə edir. Mentalitet şəxsi və ictimai şüurun meyar əsasıdır, o, fərdin, yaxud cəmiyyətin bu və ya digər dünya qavranılmasına, dünyagörüşünə potensial meyilliyini əks etdirir, bu

[22] Гуревич П.С., Шульман О.И. Менталитет, ментальность // Културология XX век. М.: Энсиклопедия.2000, с.25-27.
[23] Гуревич А.Я. Исторический синтез школа «Анналов». М.: Индрик, 1993, с.307.
[24] Гуревич А.Я. Исторический синтез школа «Анналов». М.: Индрик, 1993, с.25
[25] Ольшанский Д.В. Политическая психология. СПб.:Питер, 2002, с.69.



və ya digər situasiyalarında, əlbəttə, müəyyən şərtiliklə, insanın real əməllərini, cəmiyyətin davranışının real gözləmələrini səciyyələndirir.

Mentalitetin müxtəlif səviyyələrini göstərmək olar. Fərdi mentalitet –bu, konkret şəxs, konkret fərd səviyyəsində təzahür edir. İkincisi, milli-etnik, sinfi, peşə, yaş və digər əlamətlərinə görə fərqlənən qrupun, kollektivin, insan biliklərinin səviyyəsində təzahür edən mentalitet. Üçüncüsü, sosiumun mentaliteti- bu, bütöv öz birliklər, kollektiv və qruplar, yəni bütünlükdə xalq səviyyəsində təzahür edir. Bu mentalitet forması mövcud cəmiyyətin ərazisində, aramsız istehsal olunan, bir-birlərini əvəz edən nəsillərin həyatında yaşayır və təzahür edir. Sosial-əxlaqi faktor insanın və insan birliklərinin dünyaya, həyatın müxtəlif sferalarına müəyyənedici münasibətidir, çünki sosial-psixoloji, sosial-tarixi, sosiomədəni, sosial-siyasi kateqoriyalar mentaliteti xarakterizə edir. Sosial sfera elə bir mühüm sahədir ki, məhz burada insan özünün həyata şüurlu münasibətlərini heç də yalnız şüur, mənlik şüuru, yaxud təhtəlşüur səviyyəsində deyil, daha çox həmin cəmiyyətdə formalaşan dəyərlər vasitəsilə bildirir. Məhz bu cür fenomenlər sayəsində fərdi və ictimai şüurun zaman etibarilə keçici olan elementləri deyil, dərin, köklü, mental keyfiyyətləri və xarakteristikaları sosial ötürmə obyektləri kimi sosial yaddaşda saxlanılır, bununla da şəxsiyyətin və cəmiyyətin sosial-genetik kodunun məzmununu və strukturunu müəyyənləşdirirlər. «Sosiumun mentaliteti» deyəndə əslində nəzərdə tutulur ki, o, sosiumun həyatı prioritetlərini və məna yaradan dəyərlərini özündə təcəssüm etdirən mənəvi xəzinəsini xarakterizə edir və həyata atılan hər bir insan üçün özünün və başqa xalqların daxili aləminə, ənənəsinə və mədəniyyətinə qovuşmasına imkan yaradır. O, eyni zamanda öz mənəvi səyləri sayəsində aramsız yaradıcılıq, yeniləşmə və zənginləşmə obyektidir, hər bir insanın mənəvi təcrübəsi, həm də digər sosiumlarla inteqrasiya hesabına yaradıcı fenomendir. Məhz bu mənəvi fəallıqda insanın həyatı ali məna kəsb edir, bu inamın formalaşdırılması isə mədəniyyətin və təhsilin yüksək təyinatıdır[26]. Sosiumun mentaliteti köklərdir, ictimai günyagörüşünün və varlığın kökləridir, sosiumun mənəvi və maddi aləminin əsaslarıdır.

İnsan sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, sosiumun mentaliteti ciddi sınaqlara məruz qalır: insan birliklərinin çox çalarlı fərqlərinin, onların tarixinin milli spesifikliyinin, mədəni-etnik ukladının, dini yönümlərinin qəbul edilmiş fəlsəfi, siyasi və təhsil paradiqmalarında və

[26] Гершунский Б.С. Менталитет и образование.М.: Институт практический психологии. 1996,276.

doktrinalarında kifayət qədər diqqət yetirilməməsi mental uyuşmazlığın və sosiumlar arasında qarşılıqlı münasibətlərdə tolerantlığın olmamasının, bütövlükdə cəmiyyətin sosiomədəni səviyyəsinin aşağı olmasının nəticəsidir.

Bəşər təcrübəsi göstərir ki, hər bir dövlətin sivilizasiya tarixi burada yaşayan xalqların sosial-psixoloji həyat tərzinin formalaşdırılması tarixidir. Qədim mütəfəkkirlər coğrafi məkanı öyrənərkən daha çox xalqların ənənə və davranışına, onlardakı təkrarsız fərqlərə diqqət yetirmişlər. Mənbələrin məlumatına görə , xalqların, tayfaların xarakterini, psixologiyasını, adət-ənənələrini öyrənmək təcrübəsi antik dövrün mütəfəkkiri Feofrastdan başlayır. Roma imperiyasında dövlət sferasında çalışan alimlər xalqlar və tayfalar barədə etnoqrafik, empirik bilikləri toplayıb sistemləşdirməyi dövlət əhəmiyyətli fəaliyyət saymış, «xalqları idarə etmək» sənətinin mühüm hissəsi hesab etmişlər. Salnaməçilər belə bir maraqlı faktı qeyd edirlər ki, müxtəlif mədəniyyətlərə malik tayfalar və xalqlar həmsərhəd olmuşlar. Bizansın imperatoru Konstantin Boqryanovodun "İmperiyanı idarə etmək haqqında" (IX əsr) əsərində göstərilir ki, «bizanslılar barbar tayfalar haqqında məlumatları ciddi şəkildə toplayır və yazılı qeydə alırdılar, onların hərbi qüvvələri, ticarət əlaqələri, digər tayfalarla münasibətləri, aralarındakı çəkişmələr, nüfuzlu adamları və onların pulla ələ almaq vasitələri haqqında məlumatlar toplayırdılar. Həmin böyük səylər sayəsində toplanmış məlumatlar əsasında Bizans diplomatiyası qurulurdu"[27]. Təbii ki, belə bir təcrübədən müsəlman Şərqinin siyasətçiləri və filosofları da istifadə etmişlər. Görkəmli siyasət nəzəriyyəçisi Nizamülmülk özünün "Siyasətnamə"sində dövrünün dövlət başçılarına tabeçiliklərində olduqları xalqları və təmasda olacağı tayfaların adətlərini öyrənməyi tövsiyə edərək yazırdı ki, "ölkə daxilndə, uzaqdan-yaxına, böyükdən-kiçiyə qədər heç bir şey onların gözündən qaçmamalıdır" [28]

Xalqların ənənəsini, etnik şüurunu və həyat tərzini daha dərindən və daha aktual çalarlarla öyrənməyə stimul yaradan mühüm obyektiv meyarlardan biri məhz mentalitetdir. Tarixdə etnoqafik səfərləri ilə seçilən Heradot öz qeydlərində təmasda olduğu və müşahidə etdiyi xalqların ənənələri, adətləri, davranışları barədə maraqlı məlumatlar vermiş, onların həyat və məişətinin xarakterik xüsusiyyətlərini yaşadıqları landşaftla izah etmiş, onların təsərrüfat həyatını ellinlərin həyat tərzi ilə müqayisə etmişdir.

[27] История дипломатии.М.: Госуд. Изд.-во политической литературы, 1959, с.98
[28] Əbu Əli Həsən ibn Xacə Nizammülk "Siyasətnamə". B.: Elm,1987,s.29.



Dissertasiya işinin **"Mentalitetin sosiomədəni məkanı"** adlanan və iki yarımfəsildən ibarət olan ikinci fəslində milli sosial-mədəni məkanda mentalitetin inkişafı ilə bağlı xüsusi aktuallıq kəsb edən məsələlər araşdırılır. Bu fəslin "Sosial intellekt və mentalitet təcrübəsi: sosial-psixoloji təhlil" adlanan birinci yarımfəslində sosial intellektin təbiəti, fərdi mental təcrübənin xüsusiyyətləri sosial-psixoloji baxımdan təhlil olunur. Qeyd edikir ki, intellekt keyfiyyət fenomeni kimi şəxsiyyətin gündəlik fəaliyyətində fikir yürütmək qabiliyyətində təzahür edir; başqa sözlə, intellekt insanın gerçəkliyi dərk etməsinin əsas keyfiyyət mexanizmi kimi səciyyələndirmək olar. Öyrənmək, simvollardan istifadə etmək qabiliyyəti, ətraf alımin qanunlarını fəal surətdə qavramaq kimi cəhətlər intellektin sosial funksiyalarının çoxcəhətliliyinə dəlalət edir. M.A.Xolodnaya belə hesab edir ki, intellektin daşıyıcısı fərdi mental təcrübədir[29]. Məsələyə bu kontekstdə yanaşılsa, demək olar ki, intellektin təbiətinin düzgün dərk olunmasında "mentalitet təcrübəsi" anlayışının araşdırılması metodoloji baxımdan əhəmiyyətlidir. Qeyd edək ki, həm intellekt, həm də onun mahiyyətinin öyrənilməsinin zəruri elementi olan mentalitet sosial-psixoloji idrakın müəyyən pilləsini təşkil edir. Onların tədqiqində bir bütövlük olan sosial-psixoloji reallığı həm sosial mahiyyətinə, həm də psixoloji əsaslarına nüfuz edilməlidir. Konkret cəmiyyətdə ictimai münasibətlərin bu və ya digər xassə və xüsusiyyətlərinin məcmusu fərdlərin və qrupların birgə fəaliyyətinin nəticəsi kimi çıxış edən sosiallıq həm intellektin, həm də mentalitetin təbiətinə, düşüncənin mmental sturukturlarına xasdır. Ona görə də intellekti mövcud sturukturlar hüdudlarında fərdi mental təcrübənin təşkili forması kimi nəzərdən keçirmək olar1. Yarımfəsildə bu baxımdan mental məkan, mental sturukturlar və mental təcrübə analayışları dəqiqləşdirilir.

Sosial gerçəklikdə hadisə və proseslər dəyişdikcə mentalitetdə formalaşmanın obrazlar da dəyişir. Deməli, geniş kontekstdə götürülsə, sosial hadisə və proseslərin subyektiv obrazını yaratmaq qabiliyyəti mentalitetin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Sosial hadisələrin, proseslərin insan tərəfindən necə yerinə yetirilməsini və qavranılmasını özündə ehtiva edən bu obrazlar mental təcrübənin məzmununu daha da zənginləşdirir. Bütövlükdə sosial idrak prosesi kimi çıxış edən bu amil intellektual fəaliyyətdə mental təcrübənin xüsusi dəyərini şərtləndirir. Təsadüfi deyildir ki, görkəmli psixoloq J.Piaje qeyd etmişdir ki, intellekt

[29] Холодная М.А. Существует ли интеллект как психологическая реальност ь // «Вопросы психологии». 1990,№5, с.121-128.

ən təkamül psixi adapdasiyadır, həm də çevik və eyni zamanda qavranışın dayanıqlı tarazlığıdır.

Belə bir məqama da diqqət yetirilməlidir ki, insanın sosial-intellektual imkanları onun yaşadığı mühitdə fəaliyyət göstərən fərdlərin çoxsaylı, rəngarəng ideyalar, təsəvvürlər yaratmağa meylli olması ilə sıx bağlıdır. Bu baxımdan mental təcrübə insanın sosial mühitə idrakı münasibətinin əsasında duran subyektivfərdi, sosial-psixoloji vəziyyətlərin sistemidir, əslində obyektiv reallıq mənasında fərdilikdir.

Yarımfəsildə mental təcrübənin əsas funksiyası toplanmış informasiyanın mühafizə edib saxlamaq, nizama salmaq yeniləşdirmək prosesi kimi nəzərdən keçirilir, onun sturukturunda koqnitiv (idrakı) təcrübə və intensional təcrübə (fərdin mentalitetində mövcud olan fərdi intellektual meyllərin aşkarlanması) ayırd edilir, onların yığcam xarakteristikası verilir. Qeyd olunur ki, intellektin və mentalitetin təbiəti təkcə aktual təcrübə ilə deyil, həm də şüurun arxetipləri ilə izah edilməlidir. Arxetiplər bizim həyat tərzimizi müəyyənləşdirir və sanki gözə görünmədən tipik davranış alqoritmlərini diktə edir. Onlar həyat tərzinin böhranlı analrında olduqca fəallaşır və şüur qatından çıxaraq bizim davranışımıza nəzarət edirlər1. Belə demək olar ki, mentalitet təcrübəsi uzaq keçmişdə həyat tərzinin ətraf aləmə uyğunlaşması prosesində təşəkkül tapan sabit arxetiplərin bazasında formalaşmışdır. Deməli, intellektin və mental təcrübənin ilkin sosial-psixoloji köklərini şüurun arxetipik sturukturlarında axtarmaq lazımdır. Arxetiplər bizi ənənəyə, ənənəni isə xarici aləmin ziddiyyətlərinə uyğunlaşdıraraq, nəsillərin varislik əlaqələrini təmin edir və mental həyat tərzinin qorunmasında yardımçı olur. Bu baxımdan yarımfəsildə dünyanın obrazının yaradılması, bu prosesdə arxetiplərin rolu, mofoloji təsəvvürlərin əhəmiyyəti kimi məsələlər yığcam şəkildə nəzərdən keçirilir. Bu halda K.Yunqun, T.Mannın, Hegelin, A.F.Losevin,Q.Qaçevin, N.Marpetin, K.Levi-Strossun, E.Kassirerin, P.Klarkın, J.Piajenin, N.Podqoretskayanın, L.Levi-Bryulun, Tilvistenin, L.S.Vıqotskinin, L.Trestou, P.Zayons, S.M.Belozyerovun və başqalarının mövqeləri müqayisəli şəkildə araşdırılır. Müəlliflərin fikrincə, mentalitetin özünəməxsusluğunu daha aydın təsəvvür etmək üçan onun arxetipik strukturlarının “kodunu açmaq” və əsas arxetipi müəyyənləşdirmək çox vacibdir. Subyektin şüuruna xas olan mental xüsusiyyətlərin aşkar edilməsi, mentalitetin təbiətini öyrənmək baxımdan ciddi əhəmiyyət kəsb edən sosio-psixoloji imkanların üzə çıxarılması bir neçə məqama diqqətdə saxlamağı zəruri edir: a) intellektin daxili aləmə münasibəti; b)intellektin insan təcrübəsinə münasibəti; c)real gerçəkliyə intellektual cəhətdən uyğunlaşmaq, həmin reallığı subyektin intellekt imkanlarına, mental



keyfiyyətlərinə müvafiq tərzdə qurmaq istəyi. Mədəniyyətin hər bir inkişaf mərhələsində onun öz problemləri meydana çıxır, nəticədə “mental təcrübə”nin əhəmiyyəti məsələsini aktuallaşdırır. Şüurda daxili (arzu edilən) və xarici (qavranılan) modellərin məzmunu müəyyən nisbətdə ifadə olunur; bu halda insan qavranılanı arzu olunana çevirməyə çalışır. İnsan üçün həyatı mənası(yaxud mənasızlığı) məsələsi də şüurun məhz bu sosial-psixoloji kontekstində açılır. Belə demək olar ki, həyatın mənası üzərində düşüncələr, həmin prosesdə şüurun mental xüsusiyyətlərinin rolu məhz bu məcrada, yəni “Mən”in araşdırılmasında təzahür edir[30].

Araşdırmalara əsasən belə qənaətə gəlmək olar ki, ibtidai sosial intellektin inkişafı mental təcrübənin təşəkkülü ilə paralel getmiş, insan şüurunun formalaşmasının ilkin mərhələsini təşkil etmiş, gələcək mədəniyyətin yaranması üçün müqəddəm intellektual baza olmuşdur.

İkinci фяслин ikinci yarımfəsli “Mentalitetin azərbaycançılıq paradiqması” адланыр. Yarımfəsildə azərbaycançılığın mənəvi-intellektual yüksəlişimizin mühüm amili kimi rolunu təsdiqləyən konkret nümunələr əsasında təhlili verilir və qeyd olunur ki, azərbaycançılıq mentalitetimizin sarsılmaz bünövrə üzərində zənginləşməsi üçün yeni imkanlar açır.

İngilis filosofu Arnold Toynbi hesab edir ki, yaşadığımız tarixi dövr bütün bəşəriyyəti sınaqlara məruz qoyur. [31] Bu mülahizə hamımızı ciddi surətdə düşündürməlidir. Hazırda ümumi inkişaf insanların sosial həyatı, milli-mənlik süuru, bir sıra gərginlik halları, sosiomədəni konfliktlər və sosial sarsıntılar ilə üzləşir ki, bunlar da bəşəriyyəti həlli çox çətin olan böyük sosial-siyasi problemlər qarşısında qoyur. Müasir texnologiyalar planetar təfəkkürdə ekoloji məsələlərlə bağlı narahatlığı artırır, transmilli korporasiyalar insanların gələcəyi üçün gözlənilməz təhlükələr yaradır. İnformasiya axınlarının güclənməsi və artmaqda olan millətçilik meylləri dövlətləri yeni geosiyasi şəraitdə milli mənafelər naminə bazar qanunlarının məntiqindən irəli gələn qüsurları və konfliktləri aradan qaldırmaq məqsədilə real vəziyyətə müdaxilə siyasəti yeritməyə, mövcud reallıqların doğurduğu nəticələrlə hesablaşmağa məcbur edir. Bu kontekstdə milli faktor ciddi müzakirə obyektinə çevrilir.

Biz sosial fəlsəfə elmində «milli faktor» kateqoriyasını millətin real iqtisadi, sosial-psixoloji və mədəni həyatının potensialını hərəkətə gətirən mexanizm kimi başa düşürük. Bu anlayışın real məzmunu ilk növbədə

---

[30] Давыдов Ю. Этика любви и метафизика своеволия.М.: «Молодая гвардия»,1982, с.32-37
[31] Тойнби А. Постижение истории. М.: Прогресс, 1992, с. 605.

millətin mənlik şüurunun xarakterik xüsusiyyətlərində, emosional-psixoloji cəhətlərində üzə çıxır. Bizə elə gəlir ki, məsələyə müasir azərbaycanlıların yeni mentalitetinin formalaşması baxımından yanaşılsa, milli faktorun xalqın mənəvi potensialı, onun təzahür formaları, milli mədəniyyət və milli mənlik şüuru kontekstində nəzərdən keçirilməsi daha məhsuldar yanaşmadır.

Milli mədəniyyətin və milli mənlik şüurunun mental xüsusiyyətlərinin inkişaf qanunauyğunluqlarından biri mənəvi irsin varisliyidir.[32] Ən ümumi mənada varislik inkişaf prosesində yeni ilə köhnə arasında obyektiv əlaqədir. Varislik proseslərinin düzgün başa düşülməsi onun elmi metodologiya baxımından təhlilini zərurətə çevirir, keçmişin mədəni irsinə həm qeyri-tənqidi yanaşılmanı və həm də onun nihilistcəsinə inkarını ifratçılıq kimi dəyərləndirməyə əsas verir. Bu baxımdan vətənpərvərliyin düzgün anlaşılması xüsusi əhəmiyyət kəsb edir. Vətənpərvərlik konsepsiyası funksional baxımdan bir-biri ilə qarşılıqlı əlaqədə olan üç komponentdən ibarətdir: vətənpərvər münasibəti, vətənpərvərlik şüuru və vətənpərvərlik fəaliyyəti. Vətənpərvər münasibət insanın Vətənin faydası üçün lazım olan fəaliyyəti həyata keçirmək niyyətini, həmçinin ölkəsinin maddi-mənəvi sərvətlərinə daxili pozitiv münasibətini ifadə edir. Vətənpərvərlik şüuru onun öz vətənpərvərlik obyekti ilə vətənpərvərin qarşılıqlı münasibətinin bütün növlərinin mənəvi tənzimləyicisi, onun şüurunn daxili determinantıdır. Vətənpərvərlik fəaliyyəti isə vətənpərvərliyin real hiss olunan və görünən tərəfləridir.

Hegel vətənpərvərlik barədə yaxşı deyirdi: «Vətənpərvərlik sözü altında çox zaman yalnız fövqəladə qurban verməyi və davranışları başa düşürlər. Amma, əslində, o, elə bir ovqatdır ki, adi vəziyyətdə və adi həyat şəraitində dövləti substansional əsas və məqsəd kimi başa düşür… Bu ovqat, ümumiyyətlə, etimaddır, mənim substansional və xüsusi marağımın başqasında, yəni dövlətdə yerləşdiyini başa düşməkdir».[33]

Vətənpərvərlik və milləçilik anlayışları, təbii ki, milli mentalitetin mühüm elementləridir. Bu anlayışlar, adətən, müxtəlif xalqlarda, öz vətəninə və xalqına məhəbbət hissini bildirir. Millətçilik xalqı sevmək anlayışı kimi təqdim edilir, vətənpərvərlik anlayışını tamamlayaraq xalqı sevmək, öz ləyaqətini sevmək səviyyəsində səslənir[34]. Azərbaycançılıq öz

---

[32] Фялсяфя.Енсиклопедик лцьят.Б.:«Азярбайъан енсиклопедийасы» няшриййат-полиграфийа бирлийи, 1997.
[33] Гегель. Философская права. М.: Мысль, 1990, с. 292
[34] Абдулатипов Р. Этнополитология.СПб,Питер,2004, с.263.



milli mənsubiyyətini qoruyub saxlamaq, "eyni zamanda onun ümumbəşəri dəyərlərlə sintezindən, dünya sivilizasiyasına inteqrasiyasından bəhrələnmək, hər bir insanın inkişafını təmin olunması deməkdir" ideyası milli mentalitetin təşəkkülündə qırmızı xətt kimi keçir. Azərbaycançılıq xalq düşüncəsindən, milli təfəkkürün qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinə imkan yaradan qüdrətli fenomendir, dərin fəlsəfi mülahizələrin nəticəsidir, hər bir azərbaycanlının özünütəsdiqinin vacib elementidir. Xalq düşüncəsinin ən mürəkkəb və ən ziddiyyətli sosial-siyasi hadisələrin mahiyyətinə nüfuz etməsi, onu bir növ milli etməsi, böyük insan kütləsinin milli dövlətçilik fəaliyyəti göstərir ki, sosial inkişafı azərbaycançılıq siyasəti ilə bağlı mümkün potensial imkanları real gerçəklikdə yalnız sağlam mentalitetin mühüm daşıyıcısı olan əxlaqi və intellektual düşüncə gərginliyi sayəsində həyata keçirmək olar. Məlumdur ki, fəlsəfi fikrin nəhəng simaları ilə «fikri dialoqa girmək» insanın intellektinin hüdudlarını genişləndirməklə yanaşı, həm də onun cəmiyyətin təlatümlü hallarında milli varlığın salamat qalmaq missiyasını əxlaqi problem kimi dərk etmək qabiliyyətini inkişaf etdirir. Fəlsəfi dialoqun bir danılmaz məntiqi də budur ki, fəlsəfi intellekt fikir və ideya varisliyindən qaynaqlanır.

Beləliklə, öz mədəniyyətini, onun mayası sayılan mentalitetini qoruyan hər bir azərbaycanlı belə bir həqiqəti dərk etməlidir ki, azərbaycançılıq ideologiyası gözəl ifadə xatirinə deyilməmişdir. Azərbaycançılıq ideologiyası cəmiyyətimizin ədalətli, ləyaqətli həyat qanunları əsasında inkişafına, xalqımızın mənlik şüurunun zənginləşməsinə, mentalitetimizin yeni xüsusiyyətlərlə zənginləşməsinə yönəlmişdir.

Dissertasiya işinin **«Nəticə»** hissəsində problemin tədqiqi ilə əlaqədar başlıca qənaətlər ümumiləşdirilmiş və bunun əsasında müvafiq elmi nəticələr çıxarılmışdır. Bununla yanaşı həmin hissədə bəzi tövsiyyələrimiz də öz əksini tapmışdır:

-Azərbaycanlıların sovet dövründə sosiomədəni identekliyinin dayanaqlı mental faktorlarının və Azərbaycan milli mənlik şüurunun təşəkkülünün müasir sosiomədəni aspektlərinin müqayisəli araşdırılması mühüm sosial fəlsəfi istiqamət kimi dərindən tədqiq edilməlidir.

-Humanitar təfəkkürün formalaşdırılması kontekstində davranışın dayanıqlı mental stereotipləri və mədəni inkişaf problemi sosial-fəlsəfi tədqiqatlarda xalqın milli mənlik şüurunun daha dərindən öyrənilməsində önəmli yer tutmalıdır.

- Müasir sosiomədəni situasiya və müasir düşüncə tərzində azərbaycanlıların yeni mental keyfiyyətlərin formalaşması mexanizmlərin

yeni metodologiya baxımından öyrənilməsi xalqımızın hazırki mədəniyyətinin araşdırılmasında mühüm tədqiqatçı addımı olardı.

-Azərbaycanda yeni sosiomədəni münasibətlərin formalaşması şəraiti, faktorları və istiqamətləri sosial fəlsəfi problematika kimi aktuallığını saxlamaqdadır. Müasir sosial və humanitar elmlərin vəziyyəti göstərir ki, millətlərarası ünsiyyət mədəniyyətinin formalaşması, milli və millətlərarası ənənələrin, insanların həmrəyliyi probleminin həlli istiqamətində irəliləmək üçün mentalitet fonemeninin ən müxtəlif aspektlərinin öyrənilməsi zəruridir.

-Cəmiyyətimizin tarixində mühüm keyfiyyət mərhələsini müəyyən edən mədəniyyət, mentalitet və tolerantlıq məsələləri xüsusi tədqiqat obyekti kimi sosial- fəlsəfi araşdırmalarda daim diqqətdə saxlanılmalıdır. Bu gün sivilizasiya tolerantlıq mədəniyyətinin bərqərar olmasına ehtiyac duyur və bunun sosial fəlsəfi problem kimi tədqiqi labüd olaraq mədəniyyət və mentalitetin dialektikasının mahiyyətində yeni çalarların aşkarlanmasında mühüm yer tuta bilər.

Beləliklə, qeyd etdiyimiz problemin dərindən və hərtərəfli araşdırılması müstəqil Azərbaycan Respublikasının mədəniyyət siyasətinin getdikcə təkmilləşdirilməsini və əhalinin ən müxtəlif qrup və təbəqələri içərisində daha geniş yayılmasında müəyyən əhəmiyyət kəsb edə bilər.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır.**


1.Mədəniyyət sistemində milli mentalitetin yeri //Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı:1999, № 1. s. 219-221.

2.”Kitabi-Dədə Qorqud” dastanında Qadın-Ana problemi/Aspirantların və gənc tədqiqatçıların elmi konfransının tezisləri.II hissə.BDU-80.Bakı:2000,s.78-79.

3.Azərbaycanlı mentaliteti// Ekologiya, fəlsəfə, mədəniyyət. Elmi məqalələr məcmuəsi. Bakı:2001, s. 128-130.

4.Keçid dövrü Azərbaycan mədəniyyəti və mentaliteti// Ekologiya, fəlsəfə, mədəniyyət.Elmi məqalələr məcmuəsi. Bakı:2001, s.99-101.

5.Mentalitet anlayışı//Aspirantların və gənc tədqiqatçıların elmi konfransının tezisləri. Bakı:2001, s.63-64.

6.Milli şüur-milli özünüdərketmə vasitəsidir// Ekologiya, fəlsəfə, mədəniyyət. Elmi məqalələr məcmuəsi. Bakı:2002, s. 229-232.

7.Mentalitet anlayışı// Tarix və onun problemləri. Nəzəri,elmi, metodik jurnal. Bakı:2002, №2.-s. 146-150.





8.Milli özünüdərketmə prosesi/ ”Müstəqil Azərbaycanda elmin inkişaf istiqamətləri” mövzusunda elmi konfransın tezisləri. Bakı:2002,s.106-107.

9.Елементы толерантности в менталитете азербайджанцев./Актуальные пролемы гуманитарных и естественных наук.М.:2009,с.104-109.

10.”Mədəniyyət və mentalitetin dialektikası: sosial- fəlsəfi problem kimi// Humanitar elmlər seriyası.-B.: BUN.2011,№ 1.-s.135-142.

11.Sosial intellekt və mentalitet təcrübəsi: sosial-psixoloji təhlil// Humanitar elmlər seriyası.-B.:BUN.2011.-№4.-s.161-166.

12.Mədəni sosiallaşma və mentalitet: Nəzəri-metodoloji məsələlər// İlahiyyat fakültəsinin elmi məcmuəsi.B:BDU.2012.s.95-106.

13.Mentalitet nəzəriyyələri: metodologiya məsələləri//Humanitar elmlər seriyası.B: BUN.2012.-№4.-s.84-91.

14.Vətənpərvərlik mədəniyyəti və azərbaycançılıq mentalitet ölçülərində.İlahiyyat fakültəsinin elmi məcmuəsi.B.:BDU.2012.s.249-260.

15.Heydər Əliyev və Azərbaycan mentaliteti/Qloballaşma şəraitində sosial problemlərin həlli yolları (Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları). Bakı:2013, s.38-42.

16.Mentalitetin azərbaycançılıq paradiqması.//AMEA-nın Elmi əsərləri. Baki:2013.№1(20).s.53-57

17.Исторический, сосциологический и культурологический экскурс в азербайджанский менталитет.Сб.научных работ «Гилея:науковий вісник».Киев.2013.стр.777-780.

**Алиева Сахиба Гидаят кызы.**

**Национальная культура и национальный менталитет: философский анализ взаимоотношений**

## РЕЗЮМЕ


На современном этапе, в условиях постоянного углубления процессов глобализации и интеграции, их превращения в фактор прогресса каждой страны, растет актуальность проблемы взаимосвязи и взаимовлияния национальной культуры и национального менталитета, и эти процессы привлекают внимание исследователей представляющих разные отрасли науки.

На разработку данной проблемы должна внести свой вклад и философия, демонстрируя возможности социально-философского анализа.

С этой точки зрения особенную актуальность приобретает исследование тенденций и особенностей, присущих обогащению национального менталитета в процессе исторической эволюции богатой национальной культуры Азербайджана.

Диссертация состоит из введения, двух глав, (шести подглав), заключения и списка использованной литературы.

В первой главе диссертационной работы, названной «Культура и менталитет как социально-философская проблема», основное внимание сконцентрировано на четырёх вопросах: а) исследование возможностей, обеспечивающих обогащение менталитета в процессе культурного развития; б) выявление ментальных особенностей, присущих формированию и эволюции культурной традиции; в) исследование теоретико-методологических вопросов взаимосвязи и взаимовлияния культурной социализации и менталитета; г) сравнительный анализ различных подходов о сути проблемы менталитета и его роли в культурном процессе.

Во второй главе диссертационной работы, названной «Социокультурное пространство менталитета», проведён социо-психологический анализ тенденций и особенностей, способствующих обогащению менталитетного опыта, в первую очередь, в процессе исторического развития.

Затем рассматривается азербайджанская парадигма менталитета, подчеркивается её обусловленность с процессом защиты и укрепления нашей независимости, с созреванием каждого гражданина на основе национально-духовных ценностей.

В «Заключении» подытоживается исследование, обобщаются главные выводы, выдвигается ряд предложений, являющиеся важными для оптимизации будущих исследований в этом направлении.




**Alieva Sahiba Hidayat g.**

**National culture and national mentality: a philosophical analysis of the relationships**

## SUMMARY


At this stage, in conditions when globalization and integration processes become deeper and turn into important factor of the progress of each country the importance of problem of mutual connection and impact of national culture with national mentality increases and attracts the attention of researchers from different scientific fields.

On development of this problem should contribute the philosophy and demonstrate their possibilities on social-philosophical analysis.

From this point of view special relevance is gained by research of tendencies and the features inherent to enrichment of national mentality in the course of historical evolution of rich national culture of Azerbaijan.

Thesis consists from introduction, two chapters (six subchapters), the conclusion and the list of the used literature.

The first chapter of thesis entitled "The culture and mentality as a social-philosophical problem" the main attention has focused on four subjects : a) investigation of opportunities which provides the enrichment of mentality on cultural development process; b) revelation of the mental features inherent in formation and evolution of the cultural tradition; c) investigation of theoretical and methodological problems of interaction and the impact of cultural socialization and mentality; d) comparative analysis of the various approaches on the nature of the problem of mentality, and their role in culture process.

In the second chapter of thesis entitled "Social-cultural space of mentality," the socio-psychological analysis of trends and features promoting the enrichment of the mentality skills first of all in the process of historical development was given. Then the Azerbaijani's paradigm of mentality is considered, their conditionality with the process of protecting and strengthening of our independence, with the maturation of every citizen on the basis of national-spiritual values of our people was specially stressed.

In "Conclusion" of thesis summed up the research. Summarized the main conclusions, were given some of proposals which are important for optimization of future researches of this problem.

Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,6
Tiraj 100
AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ, СОЦИОЛОГИИ И ПРАВА**

***На правах рукописи***

**САХИБА ГИДАЯТ кызы АЛИЕВА**

# НАЦИОНАЛЬНАЯ КУЛЬТУРА И НАЦИОНАЛЬНЫЙ МЕНТАЛИТЕТ: ФИЛОСОФСКИЙ АНАЛИЗ ВЗАИМООТНОШЕНИЙ

**Специальность: 7207.01 - Социальная философия**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по философии**

**Баку - 2013**